| Xəstəlik sinifi (XBT-10) | G- Sinir sisteminin xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı (İSİM) | Yusifova B. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **G61.0.** | Giyen-Barre sindromu Kəskin (post-) infeksion polinevrit Miller Fişer sindromu |

| Müalicə |
|---|

**Dərman müalicəsi:**

Simptomatik terapiya:

- arterial təzyigin yüksəlməsi zamanı ***nifedipin***(Nifedipine) təyin oluna bilər, dilaltı 10-20 mq;
- taxikardiyanı azaltmaq üçün gündə 3 dəfə 20 mq ilkin dozada ***propranalol***(Propranolol) istifadə olunur; sonra qan təzyiqi, ürək döyüntüsü, EKQ nəzarəti altında doza tədricən 2-3 qəbul ilə 80-120 mq-a qədər artırılır;
- bradikardiya zamanı – ***atropin*** (Atropinum) , böyüklər: EKQ və qan təzyiqi nəzarəti altında venadaxili bolus - 0,5-1 mq, lazım olduqda, 3-5 dəqiqədən sonra dərmanın yeridilməsini təkrarlamaq; maksimal doza 0,04 mq/kq (3 mq). Uşaqlar - 10 mkq/kq;

Ağrıları azaltmaq üçün analgetiklər və qeyri-steroid iltihabəleyhinə dərmanlar yeridilir:

- ***ketorolak*** (Ketorolac), daxilə bir dəfə 10 mq dozada və ya təkrar olaraq , ağrı sindromunun şiddətindən asılı olaraq, gündə 4 dəfəyə qədər 10 mq. Maksimum gündəlik doza 40 mq-dan çox olmamalıdır və ya əzələdaxili olaraq 1 yeritmədə 60 mq-dan çoxolmamalıdır, adətən hər 6 saatda 30 mq.

- ***Diklofenak*** (Diclofenac), əzələdaxili. Tək doza - 75 mq, maksimum gündəlik doza - 150 mq (yeridilmə arasında ən azı 30 dəqiqəlik fasilə ilə).
- ***İbuprofen*** (Ibuprofen), gündə 3-4 dəfə 1-2 tablet; ehtiyac hallarda - hər 4 saatda 1 tablet. Hər 4 saatdan bir daha tez-tez qəbul etməyin. Böyüklər üçün maksimal gündəlik doza 1200 mq-dan çox olmamalıdır (24 saat ərzində 6 tabletdən çox olmamalıdır).

## Ədəbiyyat


Синдром Гийена-Барре

Версия: Клинические протоколы МЗ РК - 2016 (Казахстан)

https://diseases.medelement.com/disease/%D1%81%D0%B8%D0%BD%D0%B4%D1%80%D0%BE%D0%BC-%D0%B3%D0%B8%D0%B9%D0%B5%D0%BD%D0%B0-%D0%B1%D0%B0%D1%80%D1%80%D0%B5/14924